*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2025*
*Səh. 179-186*

https://doi.org/10.62837/2025.6.179

**MEHRİBAN ƏFƏNDİYEVA**
**ADU**
**Mehriban.afandiyeva72@mail.ru**

# ÜMUMİ DİLÇİLİKDƏ CÜMLƏ ÜZVLƏRİNİN PROBLEM VƏ XARAKTERİ

**XÜLASƏ:**

Dil sisteminin ən mürəkkəb vahidlərindən biri də cümlə hesab olunur. Bunun səbəbi onun semantik, sintaktik və fonetik xüsusiyyətləri ilə əlaqəlidir. Cümlə dilçiliyin sintaksis adlanan bölməsində öyrənilir. Sintaksis bölməsi həmçinin söz birləşmələrini də öyrənir. Dillərin mürəkkəb sintaktik strukturlarının müqayisəsi onu göstərir ki, hər dilin qrammatik strukturunun təhlili mübahisəlidir. Bu təhlil zamanı dillərin sintaksisində nəzəri cəlb edən problemli məqamlar vardır. Bizim tədqiqat sahəmiz isə cümlələrdir. Müqayisə etdiyimiz dillərdə cümləyə müxtəlif cəhətlərdən yanaşılmışdır.

Sintaktik tədqiqatların araşdırılması nəticəsində Azərbaycan dilçiliyində, alimlərin sintaksis nəzəriyyələri məsələləri ilə bağlı irəli sürdükləri mülahizələri tədqiq etdikdən daha sonra cümlə üzvləri olmayan sözlər haqqında aşağıdakı nəticələr əldə edilmişdir:

-Azərbaycan dilçiliyində ara sözlərin hüdudları müəyyənləşdirilmiş, onların ifadə vasitələri: söz, söz birləşmələri və cümlələr şəklində olduğu təsdiq edilmişdir, lakin onların hamısı modal söz deyil;

-istər cümlə üzvləri olan, istərsə də cümlə üzvləri olmayan sözlər və söz qrupları haqqındakı fikirlər dəqiqləşdirilməli və ümumiləşdirilməlidir;

-köməkçi nitq hissələrinin, ara sözlər və modal sözlərin fərqləndirilməsi sahəsində mülahizələr tədris prosesində mühüm əhəmiyyəti nəzərə alınaraq dəqiqləşməlidir;

- adyetivləşmə, adverbiallaşma, substantivləşmə və s. proseslər nitq hissələrində keçid prosesi adlandırılsa da, keçid deyil, kontekstual şəraitin yaratdığı funksional-sintaksis prosesdir;

-əlavə cümlələr və sözlər cümlənin hissələri arasında artırılmış əlavə konstruksiyalardır. Cümlənin digər üzvləri ilə sintaktik əlaqədə olmur, yalnız semantik əlaqə özünü göstərir;

-həm əsas, həm də köməkçi nitq hissələrinə məxsus olan sözlər aktualizator vəzifəsində çıxış edə bilər;

-çağdaş Azərbaycan dilşiliyində struktur-sintaksis problemlərinin həlli ilə bağlı tədqiqatlar davam edir və konkret fikirlər formalaşmaqdadır.

**Açar sözlər:** Cümlə, sintaksis, dilçilik, söz

Dil insanların bir-biri ilə ünsiyyət saxlamaq zərurətindən yaranmışdır. Dil insanlar arasında ən mühüm ünsiyyət vasitəsidir. Dilin cəmiyyətə xidmət etməsi onun ictimai hadisə olduğunu göstərir. Digər ictimai hadisələrdən fərqli olaraq, dil insan fəaliyyətinin bütün sahələrində cəmiyyətə xidmət edir. Elə buna görə də dili digər ictimai hadisələrlə eyniləşdirmək olmaz. İnsan cəmiyyəti olmayan yerdə dil mövcud ola bilməz.

Cümlə dil sisteminin mürəkkəb vahidlərindən biri hesab olunur. Bunun səbəbi onun semantik, sintaktik və fonetik xüsusiyyətləri ilə əlaqəlidir. Cümlə dilçiliyin sintaksis bölməsində öyrənilir. XIX əsrin 2-ci yarısından etibarən dilin önəmli sahəsi olan sintaksis tədqiqatçıların diqqət mərkəzində olmuşdur. Zaman keçdikcə sintaksisə olan maraq artmış və dilçilər tərəfindən daha geniş miqyasda öyrənilməyə başlanmışdır. Alimlər sintaksisə cümlədə sözlərin bir-birilə əlaqəyə girməsini və cümlələr arasındakı münasibətləri öyrənən elm sahəsi kimi yanaşırlar. İngilis alimi C.M.Simpson isə yazır: "Morfologiya sözlərin qrammatik strukturunu öyrənən elmdir, sintaksis isə sözdən böyük strukturları öyrənir."

Bəzi dilçilər sintaksisin sadəcə cümləni, bəziləri isə həm söz birləşmələri, həm də cümləni öyrənən elm sahəsi olaraq qəbul edir. Bu problemə B.İliş daha məqsədəuyğun yanaşmışdır. B.İliş yazır: "Sintaksis qrammatikanın söz birləşməsi və cümləni öyrənən sahəsidir." Dillərin mürəkkəb sintaktik strukturlarının müqayisəsi onu göstərir ki, hər dilin qrammatik strukturunun təhlili mübahisəlidir. Bu təhlil zamanı dillərin sintaksisində nəzəri cəlb edən problemli məqamlar vardır. Bizim tədqiqat sahəmiz isə cümlələrdir. Müqayisə etdiyimiz dillərdə cümləyə müxtəlif cəhətlərdən yanaşılmışdır.

Cümlə dil sistemində sintaksisin əsas vahidlərindən biridir. Həm ingilis, həm də Azərbaycan dilində cümləyə dilçilər tərəfindən təxminən 200-dən çox verilmişdir. Buna səbəb olaraq sintaksis haqqında yaranan yeni fikirləri əsas götürmək olar, çünki hər yeni fikrin təsiri yeni bir tərif yaradır. Bu təriflərdən bir neçəsinə diqqət yetirək. Dilçilər cümləyə tərif verərkən fikir bitkinliyini xüsusilə vurğulayırlar. Əlövsət Abdullayev cümləyə tərif verərkən yazır: "Cümlə hər bir dilin qanunları əsasında qrammatik cəhətdən formalaşan, bitmiş fikir ifadə edən vasitədir." Qəzənfər Kazımov da cümləyə oxsar tərif vermişdir: "Cümlə dilin daxili qanunları əsasında formlaşan və bitmiş fikri ifadə edən sintaktik vahiddir." Lakin, cümlədə fikir bitkinliyinin olması məsələsi mübahisəlidir. Fikir bitkinliyi daha çox mətnə aiddir. Cümlə fikir bitkinliyini daha az ifadə edir. M.Y.Blox cümlədən danışarkən ona belə bir tərif verir: "Cümlə müəyyən sintaktik quruluşa əsasən sözlərin birləşməsindən əmələ gələn nitqin ayrılmaz bir hissəsidir və kommunikativ məqsəd daşıyır." Cümlənin müəyyənləşdirilməsinin əsas meyarlarından biri də predikativlikdir. Cümləyə tərif verərkən predikativliyi də vurğulayan E.Vikulova yazır: "Cümlə predikativliyi olan və müəyyən sintaktik model əsasında sözlərin birləşməsindən

yaranan, nitq ünsiyyətində istifadə edilən kiçik sintaktik quruluşdur." Bu tərif cümlənin üç aspektinə fokuslanır: praqmatik, semantik və struktur. Predikativlik cümlə üçün əsas, hətta bəzi dilçilər üçün ən əsas qrammatik şərtdir.

Cümlə barəsində tərifləri analiz edərkən görürürk ki, Oruc Musayevin cümləyə verdiyi tərifi daha qənaətbəxşdir. O, konkret dildən asılı olmayaraq cümlənin hansı tələblərə cavab verməli və hansı cəhətlərə əsasən səciyyələndirilməli olduğunu qeyd edərək cümləyə belə bir tərif verir: "Nisbətən bitmiş fikir ifadə edən, xüsusi qrammatik quruluşa və intonasiyaya malik olan nitq vahidinə cümlə deyilir."

Mübahisələrə səbəb olan digər problemli məsələ isə cümlənin təsnifatıdır. İstər Azərbaycan, istərsə də ingilis dilində cümlə bir neçə cəhətdən, bir neçə prinsip əsasında təsnif edilir. Bunların bir qismi ümumi xarakter daşıyır, hər cür quruluş xüsusiyyətlərinə malik olan cümləəri əhatə edir, Əvvəllər cümlənin təsnifatları arasında bir çox ziddiyyətli fikirlər var idi, son zamanlarda isə iki prinsip dilçilər tərəfindən əsas götürülür:

I. Məqsəd və intonasiyaya görə olan təsnifat.

1. Nəqli cümlə (The Declarative Sentence);
2. Sual cümləsi (The İnterrogative Sentence);
3. Əmr cümləsi (The İmperative Sentence).
4. Nida cümləsi (The Exclamatory sentences)

Nida cümlələrinin bu təsnifata daxil edilib-edilməməsinə ziddiyyətli yanaşmalar vardır. Bəzi dilçilərin fikirlərinə əsasən nida cümlələri nəqli, sual və əmr cümlələrinin hiss-həyəcanla dolğunlaşdırılmasından yaranır.

II. Cümlənin quruluşuna görə olan təsnifat.

Bütün dilçilər quruluşuna görə cümlələrin təsnifatından danışarkən cümlənin iki növünü qeyd edirlər:

1. Sadə cümlələr (Simple sentence)
2. Mürəkkəb cümlələr (Composite sentence).

Bir predikativ mərkəzi olan hər hansı bir fikri ifadə edən sintaktik konstruksiyaya sadə cümlə, iki və daha artıq predikatv mərkəzi olan, vahid cümlə intonasiyası ilə müşayiət edilən, hər hansı bütöv bir fikrin ifadəsinə xidmət edən sintaktik konstruksiyaya isə mürəkkəb cümlə deyilir. Sadə cümlələr ünsiyyət zamanı tələbatı ödəmədiyinə görə mürəkkəb sintaktik konstruksiyaların istifadə edilməsinə ehtiyac yaranmışdır.

Mürəkkəb cümlə termini dilçilikdə ilk dəfə H.Pöystma tərəfindən istifadə edilmişdir. Professor Ə.Dəmirçizadənin fikrincə, mürəkkəb cümlələrin sabitləşməsi və inkişafı daha çox yazılı ədəbi dil ilə bağlı olur. Şifahi ədəbi dildə intonasiya, fasilə, vurğu kimi yazılmayan vasitələr yazılı dildə bəzən müxtəlif morfemlərlə əvəz olunur. Bu morfemlər isə cümlələr arasında əlaqə yaratmağa da xidmət edir və beləliklə də mürəkkəb cümlə növləri yazılı ədəbi dildə yaranır. Mürəkkəb cümlənin təsnifatından danışarkən,aralarındakı sintaktik bağlılığın xarakterindən asılı olaraq və

intonasiyaya görə iki növə ayrılırlar: tabesiz mürəkkəb cümlə (Compound sentence) və tabeli mürəkkəb cümlə (Complex sentence).Amma tabesiz və tabeli mürəkkəb cümlələr haqqında dilçilərin heç də hamısı eyni mövqedə dayanmayıblar. Mürəkkəb cümlənin təsnifatı müasir dilçilikdə ziddiyyətli məsələlərdən biri kimi öz aktuallığını saxlayır. Bir çox dilçilər mürəkkəb cümlənin təsnifatı haqqında müxtəlif fikirlər irəli sürmüşdürlər. Mürəkkəb cümlə təsnifatına müxtəlif mövqedən yanaşan dilçilərdən biri olan akademik Kamal Abdullayev mürəkkəb cümlələrdən danışarkən yazır: "Mürəkkəb cümlə termini yalnız o zaman yerində işlənmiş sayıla bilər ki, o məhz tabeli mürəkkəb cümlə anlayışını işarə etsin. Çünki Azərbaycan dilində, eləcə də bir çox türk dillərində tabesiz mürəkkəb cümlə kimi ayrılan mürəkkəb cümlə növü açıq-aşkar şəkildə onun tərkibinə daxil olan komponentlərin, yəni müstəqil cümlələrin struktur-semantik xüsusiyyətlərini öz içində saxlaya bilmir. Mürəkkəb cümlənin əsas əlamətlərindən biri kimi onu ayırmaq olar ki, onun hissələri, komponentləri bir-birilə son dərəcə qaynayıb-qarışır və qaynayıb-qarışma özünəməxsus əlaqələr tipini yaratmalıdır. Belə münasibətlər məhz tabelilik əsasında baş verə bilir. Mürəkkəb cümlə dedikdə biz yalnız tabeli mürəkkəb cümlələri nəzərdə tutacağıq, tabesiz mürəkkəb cümlə tipini, ümumiyyətlə, inkar edərək müstəqil cümlələrin hər hansı birliyini mürəkkəb sintaktik bütövlə əlaqədar, mətnlə əlaqədar öyrənəcəyik. Beləliklə bizim sxem belədir: Sadə cümlə→mürəkkəb cümlə (tabeli mürəkkəb cümlə)→mətn (bura həm də tabesiz mürəkkəb cümlələr aiddir).

Cümlənin quruluşuna görə təsnifatına fərqli yanaşmalardan biri də M.Y.Bloka aiddir. O, sadəcə bir predikativlik ifadə edən cümlələri sadə cümlə adlandırırdı. Eyni mübtədaya aid bir neçə xəbəri olan cümləni, eləcə də eyni xəbərə aid olan bir neçə mübtədası olan cümləni mürəkkəb cümlə hesab edirdi. Mürəkkəb cümlələri tabeli və tabesiz olaraq iki növə ayırmağa əsas verən onları təşkil edən komponentlərin bir-birilə qarşılıqlı fərqləridir. İlk fərq komponentlərin bərabər və qeyri-bərabər hüquq əsasında birləşməsindən yaranır. Aydındır ki, eyni hüquq əsasında birləşən komponentlər tabesiz mürəkkəb cümləni, qeyribərabər hüquq əsasında birləşən komponentlər isə tabeli mürəkkəb cümləni (complex sentence) əmələ gətirir. Tabesizlik əlaqəsi əsasında tabesiz mürəkkəb cümlələr, tabelilik əlaqəsi əsasında isə tabeli mürəkkəb cümləni təşkil edən komponentlər birləşir.

Dildə həm tabeli, həm də tabesiz mürəkkəb cümlə kimi hesab edilən mürəkkəb cümlələr mövcuddur. Dilçilikdə bu hal təbii hal kimi qəbul edilir. Belə ki, bir sıra tabeli mürəkkəb cümlələrin tabesiz mürəkkəb cümlələrdən əmələ gəldiyi düşünülür. Ənənəvi dilçilik tabesiz mürəkkəb cümlələrin tabeli mürəkkəb cümlələrə keçid prosesini bitmiş bir proses kimi deyil, davam edən, inkişafda olan bir proses kimi dəyərləndirir.

Mürəkkəb cümlə sistemində tabeli mürəkkəb cümlənin quruluşuna aid nəzəriyyələr daha çox diqqəti cəlb edir. B.İlyiş bunun səbəbini tabeli mürəkkəb cümlədə üslubi əlaqəliliyin daha güclü olmasında və tabeli mürəkkəb cümlənin

komponentlərinin hər birinin özünəməxsus funksiyalarının olmasında görür. Bu funksiyalılıq tabesiz mürəkkəb cümlədə hiss olunmur, çünki komponentlərdən biri digərinin funksiyasına təsir etmir.Tədqiqat sahəmiz tabeli mürəkkəb cümlələr olduğu üçün əsas diqqəti onun üzərinə cəlb etməyin daha məqsədəuyğun olduğunu düşünürük. Tabeli mürəkkəb cümlənin komponentlərindən ən azı biri asılı funksiya daşıyır və buna da budaq cümlə deyilir. Budaq cümlə, onların təsnifatı, sintaktik tərkiblərdən fərqi Q.Ş.Kazımov, Ə.Z.Abdullayev, B.A.İlyiş, A.İ.Smirnitskiy, O.İ.Musayev və başqa dilçi alimlər tərəfindən tədqiq olunmuşdur, lakin, hələ də bu mövzuda mübahisəli məqamlar vardır.

## NƏTİCƏ:

Dil sisteminin ən mürəkkəb vahidlərindən biri də cümlə hesab olunur. Bunun səbəbi onun semantik, sintaktik və fonetik xüsusiyyətləri ilə əlaqəlidir. Cümlə dilçiliyin sintaksis adlanan bölməsində öyrənilir. Sintaksis bölməsi həmçinin söz birləşmələrini də öyrənir. Dillərin mürəkkəb sintaktik strukturlarının müqayisəsi onu göstərir ki, hər dilin qrammatik strukturunun təhlili mübahisəlidir. Bu təhlil zamanı dillərin sintaksisində nəzəri cəlb edən problemli məqamlar vardır. Bizim tədqiqat sahəmiz isə cümlələrdir. Müqayisə etdiyimiz dillərdə cümləyə müxtəlif cəhətlərdən yanaşılmışdır.

Sintaktik tədqiqatların araşdırılması nəticəsində Azərbaycan dilçiliyində, alimlərin sintaksis nəzəriyyələri məsələləri ilə bağlı irəli sürdükləri mülahizələri tədqiq etdikdən daha sonra cümlə üzvləri olmayan sözlər haqqında aşağıdakı nəticələr əldə edilmişdir:

-Azərbaycan dilçiliyində ara sözlərin hüdudları müəyyənləşdirilmiş, onların ifadə vasitələri: söz, söz birləşmələri və cümlələr şəklində olduğu təsdiq edilmişdir, lakin onların hamısı modal söz deyil;

-istər cümlə üzvləri olan, istərsə də cümlə üzvləri olmayan sözlər və söz qrupları haqqındakı fikirlər dəqiqləşdirilməli və ümumiləşdirilməlidir;

-köməkçi nitq hissələrinin, ara sözlər və modal sözlərin fərqləndirilməsi sahəsində mülahizələr tədris prosesində mühüm əhəmiyyəti nəzərə alınaraq dəqiqləşməlidir;

- adyetivləşmə, adverbiallaşma, substantivləşmə və s. proseslər nitq hissələrində keçid prosesi adlandırılsa da, keçid deyil, kontekstual şəraitin yaratdığı funksional-sintaksis prosesdir;

-əlavə cümlələr və sözlər cümlənin hissələri arasında artırılmış əlavə konstruksiyalardır. Cümlənin digər üzvləri ilə sintaktik əlaqədə olmur, yalnız semantik əlaqə özünü göstərir;

-həm əsas, həm də köməkçi nitq hissələrinə məxsus olan sözlər aktualizator vəzifəsində çıxış edə bilər;

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2025*
*Səh. 179-186*

-çağdaş Azərbaycan dilşiliyində struktur-sintaksis problemlərinin həlli ilə bağlı tədqiqatlar davam edir və konkret fikirlər formalaşmaqdadır.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2025*
*Səh. 179-186*

**MEHRİBAN AFANDİYEVA**

## "THE PROBLEMS AND CHARACTERISTICS OF SENTENCE ELEMENTS IN GENERAL LINGUISTICS"

## SUMMARY

One of the most complex units of the language system is the sentence. This complexity is due to its semantic, syntactic, and phonetic characteristics. The sentence is studied within the field of linguistics known as syntax, which also examines word combinations. A comparison of the complex syntactic structures of languages shows that the analysis of grammatical structures in each language can be controversial. Such analysis reveals that there are theoretical issues in syntactic studies that require attention. Our area of research focuses specifically on sentences. In the languages we compared, sentences are approached from different perspectives.

As a result of studying syntactic research and examining the theories put forward by scholars in Azerbaijani linguistics regarding syntax, the following conclusions have been drawn about words that are not sentence members:

- In Azerbaijani linguistics, the boundaries of parenthetical words have been identified. It has been confirmed that they can take the form of single words, word combinations, or even full sentences. However, not all of them are modal words;
- Ideas concerning both sentence members and non-sentence elements—such as independent words or word groups—need to be clarified and generalized;
- Distinctions between auxiliary parts of speech, parenthetical elements, and modal words should be clarified, especially considering their importance in the teaching process;
- Although processes such as adjectivization, adverbialization, and nominalization are often referred to as transitions between parts of speech, they are not actual transitions but rather functional-syntactic processes shaped by contextual conditions;
- Additional sentences and words serve as inserted constructions between parts of a sentence. They do not have syntactic relations with other sentence members but show semantic connections;
- Words belonging to both primary and auxiliary parts of speech can function as actualizers (elements that emphasize or highlight information);
- In modern Azerbaijani linguistics, research on solving structural-syntactic issues continues, and more concrete theoretical positions are being developed.

**Keywords:** Sentence, syntax, linguistics, word

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2025*
*Səh. 179-186*

# ПРОБЛЕМЫ И ХАРАКТЕР ЧЛЕНОВ ПРЕДЛОЖЕНИЯ В ОБЩЕЙ ЛИНГВИСТИКЕ”

Одной из самых сложных единиц языковой системы является предложение. Эта сложность обусловлена его семантическими, синтаксическими и фонетическими характеристиками. Предложение изучается в разделе лингвистики, называемом синтаксисом, который также охватывает словосочетания. Сравнительный анализ сложных синтаксических структур различных языков показывает, что грамматический анализ структуры каждого языка может быть спорным. В процессе такого анализа выявляются проблемные аспекты, привлекающие внимание теоретической синтаксики. Объектом нашего исследования являются предложения. В сравниваемых языках к понятию предложения подходили с разных точек зрения.

В результате изучения синтаксических исследований и анализа теорий, выдвинутых учёными в азербайджанском языкознании, были получены следующие выводы относительно слов, не являющихся членами предложения:

- В азербайджанском языкознании были определены границы вводных слов. Установлено, что они могут выражаться словами, словосочетаниями или предложениями. Однако не все из них являются модальными словами;
- Мнения о словах и словосочетаниях, являющихся как членами предложения, так и не являющихся ими, требуют уточнения и обобщения;
- Необходимо чётко различать служебные части речи, вводные и модальные слова, особенно с учётом их значения в учебном процессе;
- Такие процессы, как адъективация, адвербиализация, субстантивация и т. д., хотя и называются переходами между частями речи, на самом деле являются функционально-синтаксическими процессами, обусловленными контекстуальными условиями, а не переходами;
- Вводные предложения и слова являются вставными конструкциями, включёнными между членами предложения. Они не связаны с другими членами предложения синтаксически, но связаны семантически;
- Слова, относящиеся как к основным, так и к служебным частям речи, могут выполнять функцию актуализатора (элемента, акцентирующего внимание);

В современном азербайджанском языкознании продолжаются исследования по решению структурно-синтаксических проблем, и постепенно формируются конкретные научные подходы.

**Ключевые слова:** Предложение, синтаксис, языкознание, слово

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2025*
*Səh. 179-186*

## ƏDƏBİYYAT:

1.Adilov M. Azərbaycan dilində sintaktik təkrarlar. Bakı. Elm. 1974
2.Алиев У.В. Синтаксис карачаево-балкарского языка. Москва. 1972
3. Musayev O. İngilis dilinin qrammatikası. Bakı: Maarif nəşriyyatı, 1996, 392 s.
4. Simpson C.M. A first course in Linguistics. Edinburg, 1979. 216 p. 5. Veysəlli F. Struktur dilçiliyin əsasları. Bakı: Mütərcin, 2008, 308 s.

**Rəyçi.dos O.Yeganə**